**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ**

*Əlyazma hüququnda*

**KAVOS MƏHƏMMƏDCAVAD OĞLU ŞƏHRİ**

# İRAN İSLAM RESPUBLİKASININ QƏRBİ AZƏRBAYCAN VİLAYƏTİNİN MEMARLIQ VƏ ŞƏHƏRSALMA İRSİ (QƏDİMNƏN QACAR DÖVRÜNƏ QƏDƏR)

**İxtisas: 6401.01** Memarlıq nəzəriyyəsi və tarixi, abidələrin bərpası və rekonstruksiyası.

Memarliq üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

## A V T O R E F E R A TI

**BAKI- 2014**

Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Memarlıq nəzəriyyəsi və tarixi, abidələrin bərpası və rekonstruksiyası" kafedrasında yerinə yerinə yetirilmişdir.

*Elmi rəhbər:* Memarlıq doktoru, professor, AMEA-nın müxbir üzvü, Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının həqiqi üzvü,
**Cəfər Əli oğlu Qiyasi**

*Rəsmi opponentlər:* Memarlıq doktoru, professor
**Rayihə Barxudar qızı Əmənzadə**
Memarlıq üzrə fəlsəfə doktoru
**Mehriban Nurqələm qızı Mikayılova**

*Aparıcı təşkilat:* Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "Memarlıq" kafedrası

Müdafiə "3" iyun 2014-ci il tarixində saat "$11^{00}$"-də Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.041 Dissertasiya Şurasının memarlıq namizədi alimlik dərəcəsi almaq üçün təşkil olunmuş iclasında keçiriləcək.

Ünvan: 370073, Bakı şəhəri, A.Sultanova küç., 5, AMİU, korpus 1.

Dissertasiya işi ilə AMİU-nun kitabxanasında tanış olmaq olar.

Avtoreferat "29" aprel 2014-ci il tarixində göndərilmişdir.

FD 02.041 Dissertasiya
Şurasının elmi katib,
memarlıq üzrə fəlsəfə
doktoru, dosent **S.İ.ALLAHVERDİYEVA**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Qərbi Azərbaycan Vilayətinin qədim şəhərlərinin və tarixi abidələrinin struktur xüsusiyyətləri və funksiyalarının araşdırılması, ölkənin tarix və mədəniyyətinin tanınmamış və sual doğuran cəhətlərini tanımağa kömək etməklə yanaşı, bu diyarın incəsənət və mədəniyyəti, habelə sivilizasiya tarixi barədə sənəd və mənbələrin üzə çıxarılması və çatışmamazlıqların aradan qaldırılması üçün əhəmiyyətli dərəcədə zəmin yaratmış olar. Belə olduğu təqdirdə bu tarixi tellərin və memarlıq abidələrinin bərpa edilməsi, bu məkanlarda sosial həyat ritminin formalaşması və abidələrin dağıdılmasının qarşısının alınması istiqamətində lazımi tədbirlərin və metodların işlənməsi üçün şərait yaranar. Buna görə də hazırki tədqiqat işində araşdırma predmeti olan mövzu ilə əlaqəli məqamların gündəmə gətirilməsi, müxtəlif dövlərin, özəlliklə indiki dövrümzə qədər qorunub saxlanılan tarixi abidələr və əsərlər arasındakı əlaqələrin araşdırılmasına, tarixi memarlıq və incəsənət abidələrinin qorunması və bərpası yollarının tapılması, bu istiqamətdə mövcud problemlərin aradan qaldırılmasına səy göstərilmişdir.

**Sualın qoyuluşu:** Bu vilayətin tarixi abidələri və memarlıq əsərləri barədə əvvəlki tədqiqatlar və araşdırmalar (bəzi məqamlar istisna olunmaqla) tarixi və siyasi vəziyyətin təsirləri səbəbindən ötəri aparılmışdır. Bu sahədə bir çox çatışmamazlıqlar mövcud olmuşdur. Bəzi hallarda isə araşdırma və tədqiqatlar qərəzli xarakter daşımışdır ki, bu da bu bölgədə mövcud olan qədim memarlıq sənəti və şəhərsalma üslubunun beynəlxalq aləmdə tanınmamasına gətirib çıxarmışdır.

Bu istiqamətdə tədqiqat işləri fonunda görülən işlər, dəyərli memarlıq abidələrinin və şəhərsalma üslubunun (müxtəlif funksiyaları – müdafiə, dini, siyasi, ticari və s, daşıyan və müxtəlif səpkilərdə inşa edilən) tanıtdırılması, onların tanıtdırılması üçün müxtəlif üsul və metodların təkliflərin təqdim edilməsi, bu abidələrin təmir və bərpa edilməsi işlərində tövsiyələrin verilməsi üçün zəruri olmuşdur.

Azərbaycanın görkəmli alim – memarları: Salamzadə A.V., Axundov D.A., Bretanitski L.S., Dadaşov S.Ə., Əlizadə Q.M.,

Fətullayev Ş.S., Hüseynov F.M., Kərimov V.I., Qiyasi C.Ə., Mehdiyev A.M., Məmmədzadə K.M. öz əsərlərində şəhərsalmanın tarixi aspektlərini və ənənəvi memarlığı geniş təhlil etmişlər.

Bundan əlavə, tarixi şəhərlərin içtimai tikintiləri ilə yanaşı, həcm – məkan, abadlaşdırma və memarlıq xüsusiyyətlərini açıqlayan tədqiqatlar digər alimlər tərəfindən aparılmışdır: Həsənova A.Ə., Hüseynov F.M., Məmmədova G.H.,Əliyev N.Ə., Nağıyev N.H.,Abdullayeva N.C., Talıbov A.M., Əfəndizadə R.M., Mikayılova M.N., Avalov E.V., Bayramov R.M., Muradov V.Q., Orucov S.İ., Salayeva R.D., Vəkilova Ə.Z.və başqaları. İranın tarixi şəhərlərinin ictimai tikintiləri ilə yanaşı, yaşayış rayonlarının planlaşma, həcm – fəza, abadlaşdırma və memarlıq xüsusiyyətlərini araşdİran alimlərdən: Alempurrəcəbi M., Əbulziya F., Ətazade M., Qızılbaş M., Memarian Q., Məhəmmədmoradi Ə., Mətin Ə., Pirniya M., Purhoseyn I., Rekui E., Rezazade M., Sultanzadə H., Zumrəşidi H. və başqalarının adlarını çəkmək lazımdır.

Bu sahədə xarici ölkələrin alimlərinin elmi tədqiqatları da böyük önəm daşıyır. Mak Nik, Vilber, Dayson, Petrofski, Bravn, Girişman, Kleiss araşdırılan mövzu ilə bağlı dəyərli fikirlər irəli sürmüşlər.

Müəllif tərəfindən son bir neçə ildə yaşayış mühitlərində araşdırmalar aparılmış və bəzi xarakterik xüsusiyyətlər üzə çıxardılmışdır .

Yuxarıda adları çəkilən alim və memarların əsərlərində tarixi şəhərlərin ümumi şəhərsalma məsələlərinə, planlaşma xüsusiyyətinə və yaşayış tikililərinin həcm – məkan xarakterinə toxunulsar.

**Tədqiqatın məqsədi** Ümumilikdə tədqiqat işinin məqsədi Qərbi Azərbaycan vilayətində mövcud olan tarixi abidələrin, mədəni irsin, memarlıq və şəhərsalma sənətinin xüsusiyyətlərinin araşdırılması, bu abidələr və mədəni irsin qonşu vilayətlərdəki memarlıq və şəhərsalmaya təsiri, bu qədim abidələrin və mədəni irsin qorunub saxlanılması metodlarının ötürülməsi, eləcə də indiki və gələcək vəziyyətə uyğun şəkildə bərpası, habelə gələcəkdə tarixi və mədəni abidələrin xüsusiyyətləri və elementləri barədə yeni və genişmiqyaslı tədqiqatların aparılması üçün münasib zəminin yaradılmasından ibarətdir.

Belə olduğu təqdirdə bu vilayətdə memarlıq və şəhərsalmanın səviyyəsi daha da yüksəlmiş olar və bu sahədə dolğun informasiya bazasının meydana gəlməsinə şərait yaranar.

Dissertasiyada aşağıdakı **əsas məsələlər** öz həllini tapmışdır:

I- Seçilmiş coğrafi məkanda müxtəlif əsrlərə aid olan memarlıq abidələrinin və şəhərsalma nümunələrinin araşdırılması;

II- Bölgədəki abidələrin formalaşmasına təsir göstərən amillərin araşdırılması;

III- Tədqiq edilmiş dəyərli abidələrin və irsin qorunması metodlarının və üsullarının müəyyən edilməsi;

IV- Bu vilayətin abidələri və mədəni irsinin öyrənilməsi istiqamətində əvvəlki tədqiqatçıların fəaliyyətlərinin araşdırılması;

V- Bu coğrafi məkanda mövcud olan hər bir memarlıq əsərinin və şəhərsalma nümunəsinin kəşfi və bərpası istiqamətində görülən tədbirlər, eləcə də arxeoloji əməliyyatların araşdırılması;

**Tədqiqat obyektini** İran İslam Respublikasında Qərbi Azərbaycan vilayətı.

**Tədqiqatın coğrafi sərhədləri** Qərbi Azərbaycan vilayəti İranın şimal-qərb bölgəsi kimi qədim sivilizasiyanın məskunlaşdığı yer sayılır. Bu vilayət İranla Avropanı birləşdirən əsas qapı kimi xarici qonşular olaraq Türkiyə Cümhuriyyəti, İraq Respublikası, Azərbaycan Respublikası (Naxçıvan MR) ilə həmsərhəddir. İranın daxilində isə 3 vilayətlə (Şərqi Azərbaycan, Zəncan və Kürdüstan) qonşudur. Urmiya gölünün 10%-i daxil olmaqla 43660 kv.km əraziyə malik olan bu vilayət 17 rayondan ibarətdir. Urmiya mərkəzi rayon sayılır.

**Tədqiqat metodu** İrannın Qərbi Azərbaycan vilayətinin önəmli qədim şəhərlərinin tarixi mərhələlərə və memarlıq abidələrinin funksiyalarına görə sistemləşdirilib öyrənilməsinə əsaslanır. Müvafiq arxiv sənədləri və tarixi məlumatların analitik təhlili, şəhərsalma – memarlıq abidələrinin yerində araşdırılıb fotofiksasiya edilmələri, ölçü cizgiləri və rəsmlərin çəkilməsi işləri aparılmışdır.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, ilk dəfə olaraq İranın Qərbi Azərbaycan vilayəti ərazisindəki memarlıq və şəhər-

salma irsi araşdırlmış və onların badii və fonksianal cəhətləri qabaraq şəkildə göstərilmişdir. Məhz bu xüsusiyyətlərə görə hazırki tədqiqat işi dolğun və yeni iş kimi gündəmə gətirilə bilər.

**Tədqiqatin təcrübi əhəmiyyəti** Qərbi Azərbaycan vilayətinin memarlığı və şəhərsalması barədə araşdırmaların və tədqiqatların tarixçəsi XVIII əsrin əvvəllərindən etibarən XX əsrə qədərki zamana dayanır. Bu tədqiqatlar ilk öncə xarici tədqiqatçı qruplar daha sonralar isə yerli tədqiqatçılar tərəfindən aparılmış və daha çox arxeoloji xarakter daşımışdır. Bu tədqiqatçıların qeydlərində Qərbi Azərbaycan vilayətinin bir sıra memarlıq və şəhərsalma xüsusiyyətlərinə toxunulmuşdur. Mövzunun əhəmiyyətini nəzərə alaraq bunu deyə bilərik ki, hazırki tədqiqat işində Qərbi Azərbaycan vilayətinin müxtəlif tarixi dövlərinə aid olan bütün abidələri və irsi arxeoloji aspektdən, memarlıq və şəhərsalma baxımından dolğun formada analiz və təhlil edilmiş, bölgə barədə informasiya bazasının yaradılması üşün ilkin işlər görülmüşdür.

**Abrobasiya** . Dissertasiyanin əsas nəticələri müəlif tərəfindən AzMİU-nin elmi əsərlərində və Tehran və Urmiyyə jurnallarında çap olunmuşdur. Tədqiqatin bir sıra müddəaları tədqiqatçinin 2000-2013-ci illərdə yerinə yetirdiyi layihə işlərində öz əksini tapmişdır. Dissertasiya mövzusu üzrə müəllif tərəfindən 7 məqalə dərc olunmuşdur.

## DISSERTASIYANIN ƏSAS MƏZMUNU

**“TARİXİ ŞƏHƏRLƏRİN PLAN-MƏKAN QURULUŞUNUN FORMALAŞMA MƏRHƏLƏRƏRI”** adlı **I fəsildə** İranda tarixi şəhərlərin, xüsusilə Qərbi Azərbaycan vilayətinin tarixi şəhərləri və bu tarixi şəhərlərin formalaşması və onların xüsusiyyətləri işiqlandırılır. İndiyədək Qərbi Azərbaycan vilayətinə aid coğrafi ərazilərdə olan şəhərsalma əsərlərinin bir çoxu araşdırılmamışdır. Bu nöqteyi-nəzərdən vilayətin tarixi şəhərləri I fəsilin bölmələrində tədqiq olur.

**1.1. Qədim şəhərlər (Urartu, Manna-Midiya şəhərləri).** Urartu sivilizasiyanın E.Ə.VIII-VII əsrlərdəki sərhədləri Van gölünün şərq hissəsi, Urmiya gölünün qərb hüdudları, Göycə gölünün cənub hissəsini əhatə edirdi. Urartu şəhərləri plan-məkan baxımdan şərq-qərb istiqamərinə doğru genişlənmişdir. Ümumilikdə desək Urartu şəhərləri daha çox təbiət qoynunda yer alırdı. Belə ki, təpələrdə mövcud olan komplekslər və mərkəzi həyətlərdən və düzbucaq formalı binalardan istifadə olunurdu. Urartu memarları bina və qalaların tikintisində daş və gildən istifadə edirdilər. Urartu üslubunda memarlıq və şəhərsalma sonrakı dövlərdə müşahidə edilən memarlıq və şəhərsalma üslubuna kifayət qədər təsir göstərmişdir. Belə ki, Əhəmənilərin memarlıq və şəhərsalma sahələrində (bu sivilizasiyanın yerləşdiyi ərazinin şimal-qərb hissəsi, xüsusilə İranın indiki Qərbi Azərbaycan vilayəti) Urartu üslubuna daha çox rast gəlinir.

Mərkəzi həyəti olan introvertiv binalardan, eləcə də hamar torpaq səviyyəsindən (Müdafiə imkanlarını və təhlükəsizliyi yüksəltmək, eləcə də mərkəzi hakimiyyətin gücünü nümayiş etdirmək üçün hündür yerlərin enişli ətəklərinin və yamaclarının səthini hamarlamaq və düzləşdirmək) istifadə, Urmiya gölünün ətrafında yerləşən və "Kəlave" (bu gün Kulə adı ilə tanınan evlərdə) müşahidə olunur. Bu evlər hündürlükləri ilə seçilirlər. Onların birinci mərtəbəsi yaşayış üçün istifadə olunmur və daha çox müdafiə məqsədi daşıyır. Bu eyni zamanda rütubətin qarşısını almaq üçün də yararlıdır. Üst mərtəbəyə çıxmaq üçünsə nərdivandan istifadə olunur) adı ilə məşhur olan qüllə formalı evlərin, habelə Fars bölgəsində yerləşən "Zərdüşt kəbəsi" adlanan binanın formasında da Urartu üslubunun elementləri özünü qabarıq şəkildə biruzə verir.

Manna dövləti e.ə VII-VI əsrlərdə Urmiya gölünün cənub bölgələrində hakimiyyət qurmuşdu. İzirtu və ya Zirtu şəhəri Manna dövlətinin paytaxtı arxeoloji ilə tədqiq edilmişdir. Bu şəhər arxeoloji qazıntılar zamanı əldə edilən tapıntılara görə qədim "Qalayçı" təpəsinin ətrafında yerləşirdi. Bu zonada aparılmış arxeoloji qazıntılar zamanı üzə çıxan tikililəri, eləcə də bu sivilizasiyadan yadigar qalmış bina və qalalar, bunu göstərir ki, həmin sivilizasiyanın nümayən-

dələri daha çox düzənliklərdə məskunlaşmış və öz şəhərlərini bu zonanın spesifik təbiəti qoynunda salmışlar. Bu strukturlarda sütunlu salonar və mərkəzi həyətlər yer almışdır.

**1.2. İslam öncəki şəhərlər.** Midiya və Əhəmənilər dövrlərində şəhərdə bazarın meydana gəlməsi məhz bu dövrə aid olan fenomenlərdəndir. Əhəmənilərin üslubunda şəhərin mühit və struktur quruluşu hakimiyyətin iç qalası (kühən dej), içəri şəhər (Şarestan), bayır şəhərə (rəbəz) ayrılırdı.

Əhəməni-Ellinizm dövründə şəhərlər iki fəlsəfə və iki mədəniyyətin sintezi nəticəsində formalaşmışdır. Biri mədəniyyət mənşəyinə əsaslanan fəlsəfə, digəri isə ictimai ehtiyaclara əsasən dövləti formalaşdıran amillərdən olmuşlar.

Parfiya dövründə ilk dəfə olaraq dairə formalı şəhərlər formalaşır və "Nesa", "Firuzabad" və "Şiyz" kimi şəhərlər meydana gəlir. Parfiya üslubu anlayışları Sasanilər dövündə daha da təkmilləşdi və mürəkkəb forma aldı. Sasani şəhəri Əhəməni şəhəri kimi Əhəmənilər dövlətində dini inanclara əsasən dünya görünüşü kateqoriyasından təsirlənərək inşa edildi. Şəhər adətən dörd istiqamətə açılan dörd darvazaya malik hasarlar boyu uzanırdı ki, bu da öz növbəsində dörd elementin göstəriciləri idi.

**1.3. İslam dövrü şəhərləri.** Bu dövrdə üç element – məscid, bazar və məhəllə, islam dövrünə aid şəhərlərin xüsusiyyətlərini özündə təcəssüm etdirdi. Bu şəhərlərdə cümə məscidi əsas element rolunu ifa edirdi və bazar şəhərin onurğa sutunu kimi inkişaf etməklə insanların, hakimiyyət və dini quruluşların əlaqə və ünsiyyət vasitəsiydı.

**1.4.Vilayət şəhərlərinin spesifik nümunələrinin araşdırılması** Bu başlıq altında Qərbi Azərbaycan vilayətinin tarixi şəhərlərı o cümlədən :Qədim Qalayça təpəsinin tarixi abidələri, Həsənlu tarixi memarlıq abidəsi, Təxti Süleyman tarixi abidəsi, Urmiyyə şəhəri, Səlmas şəhəri, Xoy şəhəri, Maku şəhəri araşdırılır və onların tarixi keçmişı və şəhərsalma xüsusiyyətlərinı təhlil edilir.

Qalayça tarixi abidəsi Manna-Midiya dövrünə aid olan tikililərdən sayılır. Bu abidə qədim Zirtu şəhərinin ilk hakimiyyət

mərkəzi sayılır və adlanırdı. Qədim şəhərlərin qurluşunu və şəhərin vahid bir mərkəz ətrafında formalaşmasını nəzərə alaraq, bunu deyə bilərik ki, Zirtu şəhərin də qədim və tarixi məbədin ətrafında formalaşmışdı. Zirtu (Qalayça) şəhərinin digər xüsusiyyətlərindən biri də onun tikintisində istifadə olunan əldə qayrılmış xam və bişmiş kərpicdir. Bu tarixi və qədm abidənin digər xüsusiyyətləri onun tikintisində istifadə olunan parlaq kərpiclərdir. Tam yəqinliklə demək lazımdır ki, bu memarlıq bəzəkləri İranda memarlıq və şəhrsalma sahəsində ilk nümunələrdən sayılır. Bu növ kərpiclərin hazırlanması və onun üzərindəki naxışlar onların istehsalı üçün lazım olan materiallarla tanışlığın göstəricisidir.

Həsənlu tarixi memarlıq abidəsi yaranma tarixi E.Ə altıncı minilliyə aid edilir. Bu ulu şəhər, qədim (8000 il bundan öncədən Elxanilər dövrünə - XIII əsr, qədər) tarixi laylarına, eləcə də incə və zərif formada işlənmiş və dünyanın ən qədim incəsənət əsərlərindən olan gözəl formaya malik “Həsənlu” qızıl camının buradan tapılmasına görə dünya şöhrəti qazanmışdır. Bu tarixi abidə YUNESKO-nun mədəni irs kitabına daxil olmaq üçün namizədlərdən biri sayılır. Arxeoloq ekspedisiyalarının hesabatlarına əsasən, qazıntılar zamanı tapılan qalınlığı 27.5m olan 10 lay (yaşayış zonaları) bu ərazilərdə min illər boyu yaşayışın olmasının göstəricisidir.

Şiz (Təxti Süleyman) İslamdan öncə böyük əhəmiyyətə malik olan dini şəhər idi. Bu tarixi kompleks Əhəməni, Parfiya, Sasani və İslam dövrünü ozundə əks etdirir. Qeyd etmək lazımdır ki, Təxti Süleyman xarabalıqlarına etibar verən məqam, onun Sasani dövrünün üç əsas məbədlərindən biri olan “Azərgəşnəsb” məbədi (səcdəgah) və qədim Şiz şəhərilə müqaisə edilməsidir.

Təxti Süleyman (Şiz) İslamdan öncə (Əhəməni-Ellinizm, Parfiya və Sasani üslubları): Təxti Süleymanın istehkamlarının dairəvi və oval formada olması Parfiya şəhər formasının göstəricisidir. Sasani dövründə bu şəhər din və dövlətin birlik və vəhdət simvoluna çevrildi.

Bu böyük ictimai-dini kompleks 624-cü ildə baş verən savaşlarda Roma imperiyasının ordusu tərəfindən törədilmiş dağıntılar və qarətlərdən sonra Sasani dövrünün sonlarındakı siyasi çaxnaş-

malar və ərəb hücumları səbəbindən böyük dağıntılar və səhmansızlıqla üzləşdi.

Elxanilər dövründə isə yeni inşa edilən məkanlar, xüsusilə Abaqa xan tərəfindən "Xosrov eyvanı"nın təmir və bərpa edilməsilə bu bölgədə siyasi və ictimai fəaliyyətlər yenidən canlanmağa başladı və bura yenidən yaylaq paytaxt olaraq istifadə olundu. Parfiya-Sasani və İslam dövrləri aid olan abidələrin indiki zamana qədər varlığını qoruyub saxlayanları abidələrin iki dövrü araşdırma və tədqiqat obyekti olmuşdur.

**"Memarlıq abidələrinin tipoloji təsnifatı "** adlı **II fəsildə** Qərbi Azərbaycan vilayətinin müxtəlif tipli abidələrinin memarlıq xüsusiyyətləri araşdirilmmış və bu tikililərin tipolojisı təhlil olunmuşdur.

**2.1. Dini Tikililərin** memarlıq xüsusiyyətlərı araşdırılır və 3 bölməyə bölünür:

Bu vilayətin dini binalarının əksəriyyəti, xüsusilə məscidlər və kilsələr dörd tağlı atəşgahların yerində inşa edilmişdir. Atəşgahlardan qalan yeganə nümunə "Təxti Süleyman"dakı "Azərgəşnəsəb" atəşgahı sayılır. Bu atəşgah Sasani dövrün öç əsas atəşgahlardan biri sayilirdı.

Bu vilayətdə Xiristiyən dinin müxtəlif qollarının fəaliyyət və nüfuzuna görə hər bir Xiristiyən xalqı (Asurilər və Ərmənilər) öz dini fəlsəfələrinə görə özünə məxsüs bir növ memarlıq yaratmışdır. Müqəddəs Tataus kilsəsi (Qara Kilsə adı ilə tanınır), Salmasın Haftavan kilsəsi, Xoyun Surp Sarkis kilsəsi (IV əsr), Xoyun Məhləzan kilsəsi (Səfəvi dövrü), Urmiyanın Nənə Məryəm kilsəsi (məsihiliyin ilk əsri), Marqurgiz kilsəsi (Sasani dövrü), Urmiyanın Qarabaq kilsəsi (Elxani dövrü) bu vilayətin müxtəlif Xiristiyən memarlığını əks etdirir.

Bu vilayətin şəhərlərində müxtəlif dövrlərdə inşa edilmiş məscidlər arasında şah əsəri sayılanlardan Mətləbxan məscidi, Mahabadın Qırmızı məscidi, Çurs məscidi, Miyanduaba Taq məscidi, Xoyda Xan, Seyyidülşühəda Və Malahəsən məscidi, Urmiyədə Minar və Sərdar məscidi, Urmiyyənın Cumə Məscidi, Səlmasın Ağa məscidını memarlıq xüsusiyyətlərı araşdırılıb və təhlil edilib.

**2.2. Xatirə tikililəri** Bu vilayətdə İslamdan oncə və İslam dan sonra xatirə tikililərin nümunələrinə rast gəlinir. Urartu və Manna dövründən galan qaya quruluşların təhlilı göstərir ki bu tikililər Əhəmənilər dövrünə aid qaya məzrlıqlarına nəzərə çarpacaq dərəcədə təsir göstərmişdir.

**2.3 Mülki tikililər.** Qərbi Azərbaycan vilayətində Yaşayış binaları, Bazarlar, Karvansaralar, Buzxanalar, Körpü və bəndlər və Yeralti kanallar (Qənat) və kəhrizlər araşdırılmış və onların memarlıq nöqt-ı-nəzərindən təhlilər aparılmışdır. Araşdırmalara görə, ilk kanal və kəhrizlər Urartulular dövründə Qərbi Azərbaycan vilayətində meydana gəlmiş və bu bölgədən İranın digər nöqtələrinə və dünyaya ötürülmüşdür.

**2.4 Müdafiətikililəri.** Müdafiə məqsədli memarlıq abidələri barədə aparılan araşdırmaları nəzərə alaraq, yəqinliklə demək olar ki, İranda müdafiə məqsədli binaların beşiyi və yarandığı yer Qərbi Azərbaycan vilayətinə aid edilir. Bu vilayətdə müxtəlif zaman kəsiklərində və dövrlərdə mövcud olmuş müdafiə xarakterli binaların bir qismi təhlil olmuşdur: Qara Ziyaəddindəki "Bülurabad" qalası, Makudakı "Bəstam" qalası, Sulduzdakı "Həsənlu" qalası, Xoydakı "Qavur" qalası, Təxt-i-Süleyman qala şəhəri, Səlmasdakı "Çəhriq" qalası, Urmiyada "Bərduk" qalası.

**"MEMARLIQ VƏ ŞƏHƏRSALMA İRSİNİN QORUNMA PROBLEMLƏRİ"** başlığı altında verilən **III fəsil** iki bölmədən ibarətdir. Burada vilayətin tarixi binalarının və məkanlarının qorunması şərtləri tədqiq olunur və bərpa təcrübəsi araşdırılır.

**3.1. Tarixi binaların və məkanların qorunması şərtləri.** Tədqiqat işinin bu bölümündə Qərbi Azərbaycan vilayətinin tarixi şəhərlərinin və tarixi abidələrin qorunmasına görə bir sıra təkliflər verilir və bu təkliflər abidələrin qorunma təcrübələrı əsaslanır.

**2.3. Qərbi Azərbaycan vilayətində tarixi binaların və məkanların bərpa təcrübəsi.**

Bu bölmədə memarlıq abidələri və onların bərpa edilməsi təcrübəsi ilə əlaqədar ikinci fəsildə aparılan tədqiqat və araşdırmaların nəticələrini nəzərə alınmaqla, araşdırma obyekti olan bölgədə tarixi

abidələrin bərpası və qorunub saxlanılması istiqamətində bir sıra elmi və praktik tədbirlər prinsipial formada gündəmə gətirilmişdir.

Urmiyyənın Cümə Məscidi kompleksi sənət və funksiyanal xüsusiyyətlərini nəzərə almasaq, bu tarixi abidənin dəyərlərinin bir qismini, keçmiş zamanlarda bu binaların məkan baxımından digər tikililərlə əlaqəsini nizama salan qaydalar çərçivəsində axtarmaq lazımdır.

Məscidin həcmi insanda mühüm mənəvi və səcdəgah təsəvvrürü yaradır. Bu kompleks şəhərdə hərəkət zamanı istiqamətin müəyyən edilməsi işində də mühüm rola malikdir. Lakin bütün bunlara rəğmən son onillikdə, memarlıq və şəhərsalma normalarından uzaq olan tikililərin meydana gəlməsi, inşaat işləri zamanı ətrafdakı tikililərin və məkanların xüsusiyyətlərinin nəzərə alınmaması, abidənin qonşuluğunda inşa edilən yöndəmsiz tikililər bu tarixi kompleksin quruluş baxımından yerini və dəyərini aşağı salmışdır.

Məscidin həyətində yeni dini mədrəsənin inşa edilməsi, şərq tərəfdən qırx sütünun dağıdılması, müasir tipli tavanla yeni binanın inşası, ətraf məkanın və küçələrin dağıdılması, çevrəsində yöndəmsiz binaların tikilməsi Urmiyyənın cümə məscidini ciddi təhlükələrlə üzləşməsinə gətirib çıxarmışdır. İndiki zamanda məscidin əvvəlki etibarı, hörməti, gözəlliyi və statusunun qaytarılması son dərəcə zəruri və mühüm məsələlərdən biri kimi hamını düşündürməlidir. Tarixi məscidin məkan dəyərlərini üzə çıxaran anlayışlardan biri buradakı məkan ahəngdarlığının təmin edilməsi və qorunmasıdır. Bunu nəzərə alsaq məscidin həyətinin şimal və qərb tərəfində yerləşən hücrələr bu tarixi memarlıq abidəsinin məkan ahəngdarlığının nizamının pozulmasına səbəb olmuşdur.

Məscidin tarixi quruluşunu əvvəlki formaya qaytarılması üçün bu elementlərin bərpa edilməsi zəruridir. Digər tərəfdən isə hərəkət yolunda giriş zonalarının yaradılması ilə keçmiş məscidlərin köməkçi küçələrə çıxışının təmin edilməsi, müracitəçilərin məscidin giriş qapısına istiqamətləndirilməsi işində mühüm rola malikdir. Bu giriş zonalarının sayı və bu zonaların məscidin həyətinə birləşməsi piyadaların hərəkəti üçün lazımi şərait yaradır. Urmiyyənın cümə

məscidində şimal tərəfdəki giriş məscidlə Daşyonanlar küçəsini birləşdirirdi. Təəssüflər olsun ki, bu giriş şimal tərəfdəki otaqların dağıdılması ilə bağlanmışdır. Bu gün şimal cəbhədən çəkilən divar, nəzərə çarpacaq dərəcədə tənəzzül yaratmışdır və bu istiqamətdə bərpa işlərinə ehtiyac duyulur.

Məscid kompleksinin şimal-şərq hissəsindəki giriş qapısı qarşı tərəfdəki küçə ilə əlaqəni birləşdirirdi. Təəssüflər olsun ki, son illərdə bu hissənin bağlanması ilə məscidin şərq hissəsindən məkana daxil olmaq üçün digər giriş yeri açılmışdır ki, bu giriş hər hansısa bir tarixi mənşəyə malik deyildir. Bu girişin bağlanılması 1955-ci ilin aeroçəkilişlərinə və cümə məscidinin qədim planı və şəkillərinə əsasən həyata keçirilməlidir. Üçüncü giriş məscidin həyətinə açılır və Əttarlar sinfinin fəaliyyət göstərdiyi küçə və Urmiyyənın bazar kompleksi tərəfindədir. Sevindirici haldır ki, bu giriş zonası struktur cəhətdən elə də dəyişməmiş və özünün əvvəlki formasını qoruyub saxlamışdır. Lakin məscidin həyətində dini tədris mərkəzinin yerləşdiyini nəzərə alaraq, öz funksiyasını itirmişdir.

Xoy şəhərindəki "Kəbiri evi"nin bərpasının təklifləri. Təmir və bərpa sözü tarixi abidənin qorunub saxlanılması, onun dağılmış hissələrinin bərpası, əvvəlki formasının ona qaytarılması, mahiyyət və özəlliyinin qorunub saxlanılması və abidənin gələcək nəsillərə ötürülməsi anlamındadır. Ümumilikdə desək Kəbiri evilə münasibətdə konstruksiya və struktur baxımından nəzərdə tutulan müdaxilələri üç əsas qrupa ayırmaq olar. Birinci qrupa aid olan işlər binanın cüzi ziyan görmüş hissələrinin təmir edilməsinə şamil olunur. İkinci qrupa daxil olan bərpa tədbirləridir ki, bunda əsas məqsəd tarixi sənədlərdəki məlumatlara əsasən binanın dağılmış hissələrinin bərpa edilməsindən ibarətdir ki, bu da binanın əsas konstruksiyası və formasının əvvəlki vəziyyətinə qaytarılması üçün son dərəcə əhəmiyyətlidir.

Digər mərhələ yenidənqurma işlərinə şamil olunur. Belə ki, binanın dağılmış bəzi hissələri barədə tarixi sənədlərdə qeydlər olmadığı halda bu iş mürəkkəbləşir. Buna baxmayaraq bu mərhələ də binanın original həndəsi formasının qorunması üçün son dərəcə əhəmiyyətli və zəruridir. Zədələr genişmiqyaslı olmadıqda təmir

işləri əvvəlki üsullarla aparılır. Lakin genişmiqyaslı dağıntılar zamanı memarlıq elementlərinin bir araya gətirilməsi, məkanda balansın yaradılması və quruluşun mükəmməlliyinin təmin edilməsi üçün həmin hissələr tarixi sənədlərdəki qeydlərə uyğun formada bərpa edilməlidir. Həmin hissələr barədə tarixi sənədlər mövcud olmadığı halda oxşar nümunələrdən istifadə olunmalı və bununla yanaşı binanın funksiyası, tarixi elementləri, struktur göstəriciləri və mötəbrliyi diqqət mərkəzində olmalıdır. Kəbiri evinin təmir layihəsində nəzərdə tutulan struktur tədbirlər zamanı aşağıda qeyd olunan amillər nəzərə alınmalıdır: konstruksiyanın xüsusiyyətləri, dəyəri və ona dəyən ziyanlar, Mühit və məkan nöqteyi-nəzərindən mövcud ehtiyaclar, Layihə üzrə müəyyən edilən əməliyyatlar. Bu müdaxilələr konstruksiyanın təkmilləşdirilməsi, bərkidilməsi və bərpasına yönəlir və hər şeydən öncə memarlıq abidəsnin tarixi dəyərinin qorunmasına, binadan səmərəli və faydalı şəkildə istifadə edilməsinə xidmət edir. Yuxarıda qeyd olunanları nəzərə alaraq, təkliflər icra detaları ilə birgə irəli sürülür.

Urmiyyə bazarının bərpasının təkliflərı. Tarixi bazarlar şəhər elementi olaraq şəhərlərin tərkib hissəsi olduğu üçün onların bərpası zamanı şəhərin memarlıq üslubu və elementləri də nəzərə alınmalıdır. Buna görədə qədim Urmiyyə bazarı yalnız memarlıq baxımından deyil, bəlkə şəhərsalma baxımından da bir sıra problemlərlə üzüzədir. Belə ki, bu istiqamətdə irəli sürülən mexanizmləri Xoy bazarı ilə münasibətdə də tətbiq etmək mümkündür. Yuxarıda qeyd olunan məqamları nəzərə alaraq, Urmiyyənin bazar kompleksinin bərpa edilməsi üçün aşağıdakı zəruri mexanizmlərin təklif edilməsi üçün səy göstərilmişdir:

1- Tədqiqat obyekti olan məkanda tikinti, bərpa və təmir işlərinin şəhərsalma məsələləri nəzərə alınmaqla istiqamətləndirilməsi üçün əhatəli idarəetmə sisteminin işlənib hazırlanması;

2- Küçələr ətrafında yaşıl zonaların yaradılması;

3- Piyadaların hərəkətinin yaxşılaşdırılması məqsədilə küçələr ətrafında geniş məkanların yaradılması, küçənin bazarla əlaqəsinin təmin edilməsi;

4- Yeni şəhər bazarının ümumi görünüşü və mənzərəsinin yaxşılaşdırılması üçün küçə divarlarının tikintisinin nizama salınması;

5- Ehtiyac duyulduğu təqdirdə və araşdırılmış layihələrə əsasən şəhər elementlərinin yaradılması;

6- Ticarət fəaliyyətlərinin keyfiyyət göstəricilərinin yüksəldilməsi, eləcə də strukturun dağılması ilə nəticələnən şəxsi mənafelərin və siu-istifadə hallarının qarşısının alınması məqsədilə, tarix, memarlıq və şəhərsalma nöqteyi-nəzərindən mühüm tikili kimi qədim bazarın mövcud strukturunu səmərəli və faydalı şəkildə istifadə edilməsi.

7- Bazarın bütün məkanlarının əlçatar olmasının təmin edilməsi, küçələrdə tıxac probleminin aradan qaldırılması məqsədilə yeni nəqliyyat və gediş-gəliş sisteminin müəyyən edilməsi;

8- Bazara gələnlərə xidmət göstərilməsi üçün münasib bilinən məkanlarda dayanacaqların inşası;

9- Məkanın turizm, mədəniyyət və xidmət zonasına çevrilməsi üçün bazarda fəaliyyət göstərənlər və bu məkana alış üçün gələnlərə lazımi şəraitin yaradılması;

10-Keçid zonalarına aid problemlərin aradan qaldırılması, keçidlərin mövcud vəziyyətinin nizama salınması, küçələrə açılan yolların asfalt örtüyü və işıqlandırılma ilə bağlı problemlərinin aradan qaldırılması və burada yaşıl zonaların yaradılması, şəhərin gözəlliyi üçün lazımi aksesuarların yerləşdirilməsi;

Urmiyyə Ettihadiyyə hamamının bərpasının təklifləri. Bu hamam öz funksiyasını itirməklə yanaşı, konstruksiya baxımından saysız- hesabsız problemlərlə üz-üzədir. Urmiyyə şəhərində tarixi abidələrin bərpası zamanı bu hamamın bərpasına üstünlük verilməlidir. Bu binanın bərpası üçün aşağıdakı təklif irəli sürülür:

İlk öncə hamamın binasındakı naməlum əlavə elementlər aradan qaldırılmalıdır. Daha sonra isə binanın dağılmış hissələri bərpa edilməlidir ki, onların dağılaraq aradan getməsi digər hissələr üçün təhlükə yaradır. Buna görə də həmin hissələrin təmirinə daha çox üstünlük verilməlidir. Qeyd etmək lazımdır ki, hamamın digər hissələrlə əlaqə yaradan koridorunun tavanı uçma təhlükəsi qarşısındadır. Tavanın yenidən əvvəlki formasına salınması və bərpa edilməsi zəruridir.

Binanın digər hissələrində çatlar müşahidə olunur. Konstruksiyadakı bu çatlar bərpa olunmalıdır ki, yük daşıyan tavan müqavimətə davamlılığı artmış olsun. Bundan sonra dam örtüyündə restavrasiya işləri görüldükdən sonra günbəz və tağlardakı çatlar aradan qaldırılmalı, zədəli kərpiclər digər alternativ materiallarla əvəz edilməlidir. Sonrakı mərhələdə binanın naxışlarında və bəzək elemementlərində meydana gələn pozuntular aradan qaldırılmalıdır. Çünki binanın daxilindəki bəzək elementlərində əsasən kaşı materialdan istifadə edilmişdir. Zədələrin aradan qaldırılması təmir-bərpa layihəsində prioritet təşkil edən məsələlərdən olmalıdır. Binanın bərpası prosesində onun əsasən hamam kimi fəaliyyət göstərdiyini nəzərə alaraq, onun üçün yeni funksiya müəyyən edilə bilər. Belə ki, bu abidə restoran və ya qalereya kimi istifadə oluna bilər. Binanın restavrasiyası onun yeni funksiyasına uyğun aparıla bilər. Belə ki, xəritələr bölməsində təklif olunan funksiya və fəaliyyət sahələrinə əsasən layihələr irəli sürülmüşdür.

Urmiyyənın Bərduk Qalası Kompleksinin bərpası. Bu kompleks uzun illər boyu ərtaf təbiətlə ahəng təşkil edir ki, bu da həmin məkanın əsil potensialından irəli gəlir. Tarixi-təbii məkanlar iki özəl xüsusiyyətə malikdirlər. Bu xüsusiyyətlərdən biri onların tarixi mahiyyətə malik olması, eləcə də insan təfəkkürünün bariz nümunəsi olmasından ibarətdir. İkincisi isə onların təbii xarakterli olması, onların uzun illər ətraf aləmdən təcrid olunması anlamındadır.

Bu binalar bərpa baxımından iki növ təhlükə və risklə qarşı-qarşıyadırlar. Bu risklərin birinci qrupu bütün tarixi abidələr üçün təhlükə yaradan risklərə aid olunur. İkinci qrupa aid olan risklər ekosistemi və onunla tarixi binanın arasındakı əlaqə üçün təhlükə yaradan risklərdirlər. Birinci növə aid olan risklər zamanı tarixi abidələrlə əlaqədar görülən tədbirlərə oxşar işlər görülür. Lakin ikinci növ risklərlə əlaqədar aşağıdakı tədbirlərin görülməsi tövsiyə olunur:

Bu kimi tikililərdə mövcud vəziyyətin araşdırılması üçün əsas məsələ ətraf elementlərin bina ilə əlaqəsi diqqət mərkəzində olmalıdır. Bu binalara dəyən ziyanın müəyyən edilməsi üçün binaya təsir göstərən amillərin, eləcə də tikilinin ətrafındakı təbii əlaqələrə

ziyan vuran amillər diqqət mərkəzində saxlanılmalıdır. Əslində bu tikililərin iki xüsusiyyətindən – tarixi və təbii, biri üçün təhlükə yaranmasına gətirib çıxaran nə varsa ziyanverici amillər sayılır.

## TƏDQİQATIN ƏSAS NƏTİCƏLƏRİ VƏ YEKUNU:

Aparılan kompleks tədqiqatların sonunda dissertasiyada aşağıdakı əsas nəticələr çıxarılmış və təkliflər irələ sürülmüşdür:

1- Urartu sivilizasiyasının ən mühüm memarlıq və şəhərsalma xüsusiyyətləri kimi şəhərlərin formalaşmasında təsirli rola malik olan digər elementlərlə yanaşı (qaya, mərkəzi həyət, əsas məskunlaşmanın şəhərin mərkəzində yerləşməsi, köməkçi yaşayış məskənlərinin ətrafda pərakəndə formada yerləşməsi) sivilizasiya və mədəniyyətlərin (hərbi-iqtisadi) toqquşmasından ibarətdir.

2- Şərq və Qərb dünyasının bir çox mütəfəkkirləri və düşüncə sahibləri belə hesab edirlər ki, İranın şimal qərbində, xüsusilə Qərbi Azərbaycan vilayəti memarlıq və şəhərsalma sənətində bir sıra kəşflər və ixtiraların beşiyi sayılır. Bu bölgədəki memarlıq və şəhərsalma daha sonrakı dövrlərdə qonşu bölgələrin memarlıq və şəhərsalmasının inkişaf etməsinə, eləcə də sivilizasiyalarının tərəqqisinə nəzərə çarpacaq dərəcədə təsir göstərmişdir. Eyni zamanda ilkin su kanallları və kəhrizlər də məhz Qərbi Azərbaycan vilayətinə və Urmiya şəhərinə aid edilir. Nəzərə alınmalıdır ki, ilk yunan məbədlərinin forması klassik memarlığın əsasını təşkil edən Urartu dövrünün sütunlu məbədlərindən götürülmüşdür. Manna dövrünə aid olan binaların fasad hissəsinə düzülən parıltılı rəngli kərpicləri ilk fasad nümunələri kimi göstərmək olar. Eləcə də müdafiə məqsədi daşıyan tikililərin inşası zamanı özəl formalardan istifadə kimi məsələləri hazırki tədqiqat işinin nəticələri və fərziyələri saymaq olar.

3- Azərbaycan diyarı xüsusilə Urmiya şəhəri Zərdüşt dininin beşiyi kimi tanınır. Bu bölgədəki məscidlər və kilsələr dörd tağlı atəşgahların yerində inşa edilmişdir. Bu dord tağlı quruluşlar çoxundan heç bir əsər-əlamət qalmamışdır. Yalnız yeganə atəşgah Azərgüşnəsb Atəşgah vilayətindəki "Təxti Süleyman Kompleksində qalmışdır.

4- Urmiyanın Cümə Məscidi Qərbi Azərbaycan vilayətində ən möhtəşəm islam abidəsi olaraq, Urmiya şəhərinin görünüşündə əhəmiyyətli rola malikdir. Həmin məscidin strukturu İslamdan əvvəlki dövlərdən başlayır. İslamın gəlişindən sonra məscid funksiyasını daşımağa başlamış, Səlcuqlar və Elxanilər dövründə daha da təkmilləşmiş, Səfəvilər, Zənd sülaləsinin və Qacarlar dövründə isə daha da inkişaf etmişdir. Bu quruluş din və mədəniyyət baxımından daşıdığı funksiya ilə yanaşı, təhsil və təlim mərkəzi, eləcə də toplaşma məkanı kimi digər funksiyaların da daşıyıcısı idi.

5- Tədqiqat obyekti olan bölgədə iki məsihi qövmü (Assuri və Erməni) yaşadığına görə, bu bölgənin kilsələrinin planı və konfiqurasiyasında özəl xüsusiyyətlər olmuşdur. Assuri kilsələrinin memarlığında binaya giriş cənub tərəfdən olur, mehrab isə şərq hissədə yerləşirdi. Lakin Erməni kilsələrində giriş qapısı düz mehrabın qarşı tərəfində, başqa sözlə desək kilsənin qərb tərəfində qoyulurdu. Bu məqam iki qövmdəki fəlsəfi fərqlərdən xəbər verir və onların məzhəb fərqlərini biruzə verir.

6- İranda tarixin müxtəlif dövrlərində qaya türbə nümunələri mövcud olmuşdur. Bu türbələr urartu dövrünə aiddir və onların tikintisində böyük qaya daşlarından istifadə olunmuşdur. Bu türbələr Pasarqaddakı Əhəməni dövrünə aid qaya türbələrin meydana gəlməsində təsirli rola malik olmuşdur.

7- Müdafiə məqsədli abidələr və tikililər üzrə aparılmış tədqqiat və araşdırmaların nəticələrinə görə, Qərbi Azərbaycan vilayətindəki Urartu dövründən qalmış qalaların memarlıq üslubunu İran imperiyasının müdafiə xarakterli memarlıq üslubunun tərkib hissəsi və ilkin nümunələri saymaq olar. Bu qalalar tarixin müxtəlif dövrlərində məkanın müəyyən edilməsi və icra metodları üzrə layihələndirmə baxımınıdan daha sonralar İranda qalaların inşası prosesinin inkişafına nəzərə çarpacaq dərəcədə təsir göstərmişdir.

8- Tədqiqatın predmeti olan kompleks (Təxti Süleyman məbədi və Qara kilsə) YUNESKO Təşkilatının Ümumdünya İrs siyahısına salındığı üçün bu vilayətdə bərpa prinsipləri və normalarına daha çox diqqət yetirilməlidir. Bu bölgənin bərpa işi üzrə ekspertlərin diqqət

mərkəzində olduğunu nəzərə alsaq, bunu deyə bilərik ki, bu bölgədəki tarixi abidələrin təmir-bərpa və qoruması istiqamətindəki tədbirlər dünya səviyyəsində digər ölkələrdə olan oxşar məkanlardakı işlər zamanı nümunə kimi istifadə oluna bilər.

Məhz bu məqam tədqiqat işinin əhəmiyyətini önə çəkir. Tədqiqatçı tərəfindən elmi nümunə kimi təqdim edilmiş Təxti Süleyman tarixi kompleksin bərpası və qorunub saxlanılması layihəsi dünya səviyyəsində elmi nümunə olaraq gündəmə gətirilə bilər. Həmin layihədə təqdim olunan mexanizm və prinsiplər isə bu abidənin bərpası və qorunması işində nəzərə alınaraq tətbiq oluna bilər.

9- İnanc və etiqadları iki qrupa – dini və mədəni, ayırmaq olar. Ümumilikdə din və mədəniyyət baxımından xalqın əhəmiyyət verdiyi və ona sıx bağlı olduğu inancları nəzərə aldıqdan sonra belə bir nəticəyə gəlirik ki, hər bir fenomen öz varlığını qoruyub saxlamaq üçün insanların həyat və yaşam tərzi ilə bağlı olmalı və onların inancları ilə uyğunluq təşkil etməlidir. Başqa sözlə desək tədqqiat predmeti olan bölgədəki abidələrin bərpası və qorunub saxlanılması işi ilə əlaqədar bütün nəzəriyyələr və səylər mütləq məhz bu prinsipə əsaslanmalıdır.

İlk öncə mədəni irsin və tarixi abidələrin həmin bölgənin xalqının gözündə və inanclarında yüksəldilməsi, əhəmiyyəti və dəyəri barədə maarifləndirmə yolu ilə xalqa məlumat verilməsi mexanizmləri işlənib hazırlanmalıdır. Daha sonra isə mədəni irsin qorunması istiqamətində tədbir görülməlidir. Bir məqama diqqət yetirmək lazımdır ki, hər yerdə mədəni irsə mentalitet mahiyyətinin verilməsi əsas və başlıca prinsiplərdən sayılır. Buna görə də tədqiqat predmeti olan vilayətin tarixi abidələrinin və mədəni irsinin bərpası və qorunub saxlanılması işində yuxarıda qeyd olunan prinsip və mexanizmlər diqqət mərkəzində saxlanılmalıdır.

## İŞIN NƏTICƏLƏRININ TƏTBIQI

Hazırki tədqiqat işi Qərbi Azərbaycan vilayətinin memarlıq və şəhərsalmasın tarixini işiqlandırır. Tədqiqatımızdan əldə olunmuş nəticə aşağıdakı sahələrdə istifadə olunmuşdur:

- 2007-2009-cu illər ərzində Urmiyyə şəhərində tarixi binaların bərpa və rekonstraksiya işlərində.
- 2009-2011-cu illər ərzində Təxt-i-Süleyman kompleksin və rekonstraksiya işlərində.
- Urmiyyə Universitetı və İslam Azad Universitetinin Urmiyyə filialında, şəhərsalma və memarlıq fakultəsinin bakalavr və maqistr pillələrində dərslik material kimi.

## DISSERTASİYA IŞININ MÖVZUSU ÜZRƏ AŞAĞIDAKI ƏSƏRLƏR ÇAP OLUNMUŞDUR:


1. Şəhri K. The investigation on organization of the architecture in old bazaar of Urmia city,İran //Elmı əsərlər, № 1 , AMİU , Bakı : 2008, s.28-37.
2. Şəhri K. Introducing capabilities (architectural, tourism,…etc) of chronological city of Orumieh, Iran //Elmı əsərlər, № 2,AMİU,Bakı: 2010, s. 88-95.
3. Şəhri K. Mihrab of Orumieh jame mosque, İran // Urbanizm jurnalı , No16 , AUC , Bakı : 2010 , s. 88-92.
4. Şəhri K. Takht –e – Soleyman the Splendor of Azerbaijan, İran, No17 , AUC , Bakı : 2013 , s. 126-132.
5. Şəhri K. Jame mosque of Orumiyeh city, İran // Ekologiya və su təsərrüfatı-Sentyaber,2009ci il-№ 4, s11-19.
6. Şəhri K. The immartal heritage of West Azerbaycan in İran // Ekologiya və su təsərrüfatı-Dekabr,2009ci il-№ 5, s28-32.
7. Şəhri K and Xoşniyyət S. Architectural and urbanism structural changes in Iran at the first Pahlavi period (Case study Urmia)// National seminar conference on the Iranian city of historical, cultural and religious. 8 September 2012- İran, Urmiya: 2009.

Qərbi Azərbaycan vilayətinin coğrafi və civilizisiyasının xəritələri







Urartu dövrünə aid Bəstam şəhərinin plan və skizləri





Həsənlu və Təxt-i-Süleymanın görünüşləri





## Qərbi Azərbaycan vilayətinin tarixi şəhərlərinin quruluş dövrləri













## Urmiyyə və Xoy şəhərlərinin tarixi plan quruluşları




Həsənlu tarixi kompleksin plan quruluşu





Təxt-i-Süleyman tarixi komplekinin təhlili





Qərbi Azərbaycan vilayətində xatirə abidələr







## Urmiyyə cümə məscidinin pərpasının görünüşləri












## Urmiyyə tarixi bazarın təhlili






Urmiyyə və Xoy şəhərində tarixi yaşayiş evləri









Urmiyyə şəhərində tarixi hamamların bərpasının planları







Qərbi Azərbaycan vilayətində Urartu və Sasani dövrlərin korpuləri






Urmiyyə şəhərinin kəhrizlərin planı



Təxt-i-Süleymanın bərpasının detailları





3



# КАВОС ШАХРИ

# АРХИТЕКТУРНОЕ И ГРАДОСТРОИТЕЛЬНОЕ НАСЛЕДИЕ ЗАПАДНО-АЗЕРБАЙДЖАНСКОЙ ПРОВИНЦИИ ИРАНСКОЙ ИСЛАМСКОЙ РЕСПУБЛИКИ (ОТ ДРЕВНЕГО ДО КАДЖАРСКОГО ПЕРИОДА)

## РЕЗЮМЕ

**Целью исследования** является исследование особенностей исторических памятников и градостроительного исскуства Западно-Азербайджанской провинции Ирана от древнего до Каджарского периода, изучение влияния этого наследия на архитектуру и градостроительство соседних стран и анализ методов ее охраны, создание соответствующей научной почвы для реставрации исторических и культурных памятников, так же для проведения широкомасштабных исследований этих памятников.

**Научная новизна исследования** состоит в том, что здесь впервые всесторонне освещено архитектурное и градостроительное наследие Западно-Азербайджанской провинции Ирана от древнего до Каджарского периода, подробно рассмотрены художественные особенности и дана функциональная классификация архитектурных памятников и предложены рекомендации по их охране.

**Практическое значение исследования** состоит в том, что результаты исследования могут быть применены в решение проблем по охране планировочной структуры архитектурного и градостроительного наследия рассматриваемой провинции.

Первая глава - **«Этапы формирования планировочно-пространственной структуры исторических городов»,** состоит из четырех разделов и здесь были исследованы древние города (Урарту, Манна-Мидия), доисламские города и города исламского периода и рассмотрены характерные примеры рассматриваемого региона.

Вторая глава -**“Типологическая классификация архитектурных памятников»** охватывает четыре раздела, где рассмотрены архитектурно-планировочные особенности архитектурных

памятников различного назначения (культовые, мемориальные, гражданские и оборонительные постройки) Западно-Азербайджанской провинции Иранской Исламской Республики.

В третьей главе - **«Проблемы охраны архитектурного и градостроительного наследия»** состоящей из двух разделов, проанализированы условия охраны исторических построек и исторической среды провинции и рассмотрен опыт реставрации архитектурных памятников.

## KAVOS SHAHRI

## ARCHITECTURAL AND URBAN HERITAGE OF THE WEST AZERBAIJAN PROVINCE OF THE ISLAMIC REPUBLIC OF IRAN (FROM THE ANCIENT TO THE QAJAR PERIOD)

## SUMMARY

**The purpose of research** is to study the features of historic monuments and urban arts West Azerbaijan province of Iran from ancient to the Qajar period, the study of the impact of the heritage architecture and urbanism of neighboring countries and the analysis methods of its protection, the creation of relevant scientific ground for the restoration of historical and cultural monuments, as well for large-scale studies of these monuments.

**Scientific novelty of the study** is that for the first time fully lit architectural and urban heritage of the West Azerbaijan province of Iran from ancient to the Qajar period, detail the art features and functional classification given landmarks and offered recommendations for their conservation.

**The practical significance of the study** is that the research results can be applied to solving problems for the protection of the planning structure of the architectural and urban heritage of the province under consideration.

**The first chapter** - "Stages of the planning and spatial structure of historic cities", consists of four sections and there were investigated the ancient city (Urartu, Mann-Midia), pre-Islamic cities and towns Islamic period and typical examples of the region.

**The second chapter** - "The typological classification of land-marks" covers four sections, which are considered architectural and planning features landmarks for different purposes (religious, memorial, civil defense and construction) of West Azerbaijan province of the Islamic Republic of Iran.

**In the third chapter** - "Problems of architectural and urban heritage" consists of two sections, analyzed conditions for the protection of historic buildings and the historic environment of the province and considered experience in restoration of architectural monuments.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ АРХИТЕКТУРНО-СТРОИТЕЛЬНЫЙ
УНИВЕРСИТЕТ

*На правах рукописи*

**КАВОС МОХАММАДЖАВАД ОГЛУ ШАХРИ**

# АРХИТЕКТУРНОЕ И ГРАДОСТРОИТЕЛЬНОЕ НАСЛЕДИЕ ЗАПАДНО-АЗЕРБАЙДЖАНСКОЙ ПРОВИНЦИИ ИРАНСКОЙ ИСЛАМСКОЙ РЕСПУБЛИКИ (ОТ ДРЕВНЕГО ДО КАДЖАРСКОГО ПЕРИОДА)

**Специальность 6401.01 -** «Теория и и история архитектуры, реставрация и реконструкция памятников»

## АВТОРЕФЕРАТ

диссертации на соискание учёной степени
доктора философии по архитектуре

**БАКУ – 2014**

*Каьыз форматы 60х84 1/16,*
*Чап вяряги: 1.9*
*Сифариш № 47. Тираж 100.*

***Memar Nəşriyyat Poliqrafiya MMC***
*тел.: (050) 352 33 58*